UOT 94
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.245

# KONSESİYAÇILIQ

ƏMİRLİ İSRAİL
*Bakı Dövlət Universiteti Tarix fakültəsi*
*Asiya və Afrika ölkələri tarixi kafedrası*
*E-mail: amirovisrail04@gmail.com*

## Giriş

Konsesiyaçılıq XVI əsrdən başlamış bir iş forması idi. Belə ki, bu dövrdə Böyük Coğrafi kəşflər nəticəsində Avrasiya materikinə yeni məhsullar gətirilir kapitalist münasibətləri inkişaf edirdi. Bu amillərin nəticəsində sənaye məhsullarının yaranmasının da təsiri ilə konsesiyaçılıq başlamışdır. Konsesiyalar əsasən Avropa şirkətləri tərəfindən həyata keçirilmişdir. Ancaq, konsesiyaçılıq düzgün iqtisadi münasibətlər nəticəsində qurulmamışdır. Bunun nəticəsində bir sıra ölkələr müstəmləkə və yarımmüstəmləkəyə çevrilmişdir.

## Konsesiyaçılıq

Konsesiyaçılıq XVI-XX əsrləri əhatə edən bir işbirliyi forması idi. Bu dövrdə Asiya ölkələrində feodalizm davam edirdi. İnsanlar gəlirlərini əsasən başqa sahələrdən deyil, məhz torpaqdan əldə edirdilər.

Bu zaman Avropa ölkələrində Böyük Coğrafi kəşflər nəticəsində kapitalist münasibətləri inkişaf edirdi. Başqa ölkələrdən xüsusilə Amerika, Afrika və Asiyadan yeni bitki və meyvələr gətirilir, kənd təsərrüfatında çox çeşidlilik yaranırdı. Bu amil kapitalist münasibətlərinin inkişafını şərtləndirən amillərdən biri idi.

Bununla birlikdə sənaye çevrilişinin baş verməsi nəticəsində elmi yeniliklər iş sahələrinə tətbiq edilirdi. Bunun nəticəsində Avropa ölkələrində dəmiryolları, teleqraf xətləri çəkilir, avtomobil və yeni silahlar istehsal olunurdu. Bu üstünlüklərdən istifadə edən Avropa şirkətləri Şərq ölkələrini müstəmləkələşdirmə siyasətini götürmüşdülər. Ancaq burada bir məsələni qeyd etmək lazımdır ki, Avropa ölkələri elmi yeniliklərin tətbiqini müstəmləkə ölkələrdə olmaqla, eyni zamanda müstəmləkə olmayan ölkələrdə də həyata keçirirdilər. Yəni konsesiya fəaliyyətlərini həyata keçirirdilər. Dəmir yol xətləri, su kanalları, teleqraf xətləri çəkir, dövlət idarə etməsində yenilikləri həyata keçirirdilər.

Məhz bunun nəticəsində dünyanın mənzərəsində yeniliklər baş verirdi. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, şəhərlərin və kəndlərin bugünkü mənzərəsi məhz XX-XXI əsrdə həyata keçirilən layihələr nəticəsində mümkün olmuşdur. Bunun nəticəsində asfalt yollar çəkilmiş, yeni bina evlər tikilmiş, elektrik xətləri, telefon xətləri çəkilmiş, müasir cihazlar meydana çıxmışdır. Məhz bu amilin hamısı XX əsrdə təhsilin kütləviləşməsi nəticəsində baş vermişdir. İnsanlıq min illər ərzində əldə edə bilmədiyi uğurları, 100-150 il ərzində təhsilin kütləviləşməsi nəticəsində əldə etmişdir. Ona görə XX əsri insanlığın qızıl əsri adlandırmaq olar.

Konsesiyaçılığın əsası isə XVI əsrdə qoyulub. Misal üçün Osmanlı dövləti 1535-ci ildə fransızlara konsesiyalar vermişdi. Sonradan bu konsesiyalar digər Avropa dövlətlərinə də verilmişdi. Məhz bunun nəticəsində Avropa ölkələri Osmanlı dövlətini parçalamaq yolunda fəaliyyətlər həyata keçirməyə başlamışdılar. Bunun nəticəsində Avropa konsesiyaçıları Osmanlı dövlətinin ərəb mülklərində yerli tayfa başçılarını, şeyxləri türklərə qarşı üsyan etməyə sövq edirdilər. Onlar Osmanlı dövlətini xəstə adama bənzədirdilər. Bunun da əsas səbəbi Avropa dövlətlərinin daha tez kapitalist münasibətlərinə daxil olması idi.

Məhz bu konsesiyaçılıq fəaliyyətindən istifadə edərək Avropa dövlətləri Şərq ölkələrini müstəmləkə və yarımmüstəmləkəyə çevirirdilər. Konsesiyaçılıq əslində icarə hüququ deməkdir. Lakin Avropa şirkətləri müəyyən sahələri icarəyə götürür və bu sahədə inhisarçılıq yaradırdılar. Misal üçün dəmir yol xətləri çəkirdilər, özləri işlədirdilər, teleqraf xətləri çəkir özləri işlədirdilər, neft quyuları qazır özləri işlədirdilər. Buradan da ya dövlətə vergi vermir, ya da çox cüzi vergi verirdilər.

Türkiyə tarixindən bir faktı qeyd etmək lazımdır ki, Mustafa Kamal Atatürk XX əsrin əvvəllərində bu konsesiyaçılara böyük məbləğdə maliyyə verərək ölkənin dəmir yollarını onlardan almışdı.

Qacarlar dövləti də Avropa və çar Rusiyası şirkətlərinə böyük miqdarda konsesiyalar vermişdi. Bu konsesiyalar ilk dəfə olaraq 1872-ci ildə teleqraf xətlərinin çəkilməsi üçün Reyterə verilmişdi. Sonradan belçikalı Nausa gömrük işinin təşkili üçün konsesiya, Talbota tənbəki konsesiyası, Lyaxova balıq vətəgələri konsesiyası və s konsesiyalar ve-

rilmişdi. Məhz Qacar hökumətinin sonunu gətirən bu konsionerlərin fəaliyyətləri nəticəsində Qacarlar dövləti yarımmüstəmləkəyə çevrilmişdi. Xarici Asiya və Afrika ölkələri adlı əsərdə məlumat verilir ki, 1872-ci ildə Reyter şahdan 70 il müddətinə yeni konsesiya aldı. Həmin konsesiyaya görə ona neft və başqa təbii sərvətləri istismar etmək, şose və dəmir yolları çəkmək, teleqraf və telefon xətləri, fabrik və zavodlar tikmək, banklar, poçt təşkil etmək və sair sahələrdə inhisar hüququ verilirdi [ 2.səh.505].

XIX əsrdə Azərbaycanın neft, mis sənayesi sahəsində, meşəçilik sənayesi və bəzi yataqların işlənməsində də konsesiyalar verilmişdi. Bu konsesiyalar Avropa şirkətləri ilə yanaşı, çar Rusiyası şirkətləri idi.

Konsesiyaçılıq demək olar ki, XIX-XX əsrin əsas yatırım forması idi. Ancaq Şərq ölkələrində həyata keçirilən konsesiyalar qeyri-iqtisadi münasibətlər şəklində həyata keçirilirdi. Bu konsesiyaları Avropa şirkətləri həyata keçirsələr də demək olar ki, əksər ölkələrin tarixində bu barədə məlumatlar yoxdur. Misal üçün hansı ölkədə elektrik xətlərinin, telefon xətlərinin nə vaxt çəkilməsi və digər konsesiyalar haqqında məlumat yoxdur.

Bu konsesiyalar bəzi Şərq ölkələrində üsyanlara səbəb olurdu. Misal üçün Qacarlar dövlətində Talbota verilən konsesiya üsyana səbəb olmuşdur ki, şah hökuməti bu icarə hüququnu ləğv etmişdir. 1919-cu ildə Vosuq ət Dövlə hökumətinin verdiyi konsesiyalar Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə qiyama səbəb olmuşdur. Şah hökuməti bu qiyamları çətinliklə yatırmışdı.

Saytda göstərilir ki, 1922-ci ildə Haaqa konfransı zamanı sovetlərin nümayəndəsi L.B. Krasin təklif vermişdi ki, çar hökuməti dövründə mövcud olan konsesiyaları geri vermək fikrindədirlər. Bir çox xarici konsisonerlər bununla razılaşmışdı. Ancaq bu təklif ölkədə böyük etiraza səbəb olmuşdu [1].

Burada bir amili qeyd etmək lazımdır ki, sovet ölkəsində əsas mülkiyyət forması dövlətə məxsus idi. O, cümlədən sosialistlər hakimiyyətə gələn zaman yerli mülkədarlıqla yanaşı, xarici yatırımcıların mülkədarlığını da ləğv etdilər. O, cümlədən çar hökumətinə məxsus xarici ölkələrdə olan konsesiyalar, həmin ölkələrə verildi. Misal üçün Qacarlar dövlətində olan bütün konsesiyalar onlara güzəştə gedildi.

Türkiyədə istiqlal müharibəsi dövründə fransızlar müharibədən çıxmış və bununla yanaşı Mustafa Kamal hökuməti ilə yeni konsesiya müqaviləsi bağlamışdılar.

Avropa ölkələrinin tarixində isə konsesiyaçılıq haqqında demək olar ki, məlumat verilmir. Çar Rusiyasında da konsesiyalar haqqında məlumat verilmir.

Ancaq saytda göstərilir ki, hakimiyyətlərinin ilkin vaxtında SSRİ hökuməti bəzi konsesiyalara icazə vermişdi. 1922-1927-ci illərdə SSRİ-yə 2000 konsesiya təklifi olmuşdur ki, bunlardan 10 faizi realizə olunmuşdur. 1926-cı ildə Sovet dövlətində 103 konsesiyanın olması haqqında məlumat verilir [1].

Konsesiyaçılıq XX əsrdə demək olar ki, bir çox ölkələrdə işbirliyi şəkli olsa da, öz mahiyyətini dəyişmişdir. Lakin müasir günlərdə də konsesiyalar haqqında məlumatlar mövcuddur.

Burada bir məsələni qeyd etmək lazımdır ki, 2016-cı ildə Rusiya hökuməti Moskva vilayətində yol çəkilməsini konsesiya şəklində vermişdir [1]. Müasir dövrdə konsesiyaçılıq öz xarakterini dəyişmişdir. İndi konsesiya dövlət və özəl bölmənin işbirliyi əməkdaşlığı şəklində həyata keçirilən bir iş forması şəklində olmaqdadır. Lakin hazırda demək olar ki, bu işbirliyi formasından istifadə olunsada bəzi hökumətlər bu barədə məlumatlar vermirlər.

**Nəticə**

Avropa şirkətlərinin konsesiya fəaliyyətlərini həyata keçirmələri nəticəsində Asiya və Afrikada bir sıra dövlətlər müstəmləkə və yarımmüstəmləkəyə çevrildilər. Bununla yanaşı dünya ölkələrində modernləşmə fəaliyyətləri başladı. Dünyanın əksər ölkələrində sənaye münasibətləri inkişaf etməyə başladı. Kapitalist münasibətləri inkişaf etdi. Bir sıra ölkələrdə feodalizmi kapitalizm əvəz etdi. Fəhlə təbəqəsi yarandı. Konsesiyaçılıq fəaliyyəti nəticəsində təhsil və təhsil müəssisələri kütləviləşdi. Bunun nəticəsində bir sıra elm sahələri inkişaf etməyə başladı.

XXI əsrə qədər gəlib çatan konsesiyaçılıq isə dövlətlə - özəl bölmənin iş birliyi formasına çevrildi.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. www. ru.wikipedia.org.*

*2. Xarici Asiya və Afrika ölkələrinin yeni tarixi Bakı-Azərbaycan-1962.*

**XÜLASƏ**

Konsesiyalar məhz kapitalizmin inkişafı ilə əlaqədar yaranmışdı. Onu demək lazımdır ki, ilk şirkətlər də məhz yeni dövrdə Avropada yaranmışdı. Bu dövrdə şərq ölkələrində karvanlar ilə ticarət olsa da şirkətlər mövcud deyildi. Ost-Hind şirkətləri adlandırılan Avropanın ilk şirkətləri XVI-XX əsrləri əhatə edən bu dövrdə əsas konsisonerlər idi. Bu dövrdə Böyük Coğrafi kəşflər nəticəsində yeni materiklər kəşf olunmuş, məskunlaşdırılmış, bu ölkələrlə ticarət əlaqələri qurulmuşdu.

Lakin ilk vaxtlarda Avropa dövlətləri xarici ticarəti inhisarda saxlayırdılar. XIX əsrdən isə inhisarçılıq aradan qaldırılır. Bunun nəticəsində çoxlu sayda yeni şirkətlər, Şərq ölkələri ilə ticarət münasibətlərinə qoşulurlar. Şərq ölkələri ilə ticarət konsesiyalar şəklində həyata keçirilməyə başlanır.


**Açar sözlər.** *Konsesiya, şərq ölkələri, işbirliyi, yarım müstəmləkə.*

**I.D. Амирли**

**Концессионер**


**РЕЗЮМЕ**

Концессии возникли именно в связи с развитием капитализма. Следует сказать, что первые компании были созданы в Европе в новую эпоху. В этот период хотя и велась караванная торговля с восточными странами, но компаний не было. Основными концессионерами в этот период, охватывающий XVI-XX вв., были первые европейские компании, получившие название Ост-Индских компаний. В этот период были открыты и заселены новые континенты, установились торговые связи с этими странами.

Но вначале европейские государства сохраняли монополию внешней торговли. С 19 века монополия была ликвидирована. В результате многие новые компании вступают в торговые отношения со странами Востока. Торговля с восточными странами начинается в форме концессий.


**Ключевые слова:** *Концессия, восточные страны, кооперация, полуколония.*

**I.C. Amirli**

**Concessionaire**


**SUMMARY**

Concessions arose precisely in connection with the development of capitalism. It should be said that the first companies were created in Europe in the new era. In this period, although there was trade with caravans in eastern countries, there were no companies. The first European companies, called the East India companies, were the main concessionaires in this period, which spanned the 16th-20th centuries. During this period, new continents were discovered, inhabited, and trade relations with these countries were established.

But in the beginning, the European states kept the foreign trade monopoly. Since the 19th century, monopoly has been eliminated. As a result, many new companies join trade relations with Eastern countries. Trade with eastern countries is started in the form of concessions.


**Key words:** *Concession, eastern countries, cooperation, semi-colony.*